**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№300/6** **18 may 2018-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasına Fəxri üzv qəbul edilməsi barədə**

Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.9-cu “Auditorlar Palatasına həqiqi, assosiativ və fəxri üzvlüklə bağlı tədbirlərin həyata keçirilməsi” bəndinə və Palata Şurasının 2015-ci il 22 iyun tarixli 264/2 nömrəli “Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə” qərarına uyğun olaraq Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan şəxslər barədə Auditin təşkili və kadr hazırlığı idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış siyahını və fəxri üzvlüyə dair sertifikatın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin təşkili və kadr hazırlığı idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış fəxri üzvlüyə dair sertifikatın layihəsi təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan aşağıdakı şəxslərə Palatanın Fəxri üzvü statusu verilsin:

- Mirzəyev Səfa Abbas oğlu – Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri;
- Mehmet Timur – Türkiyə Sərbəst Mühasibəçi Mali Müsavirlər və Yeminli Mali Müsavirlər Odaları Birliyinin sabiq prezidenti.

3. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov, N.Əhmədli) tapşırılsın ki, iki həftə müddətində bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsinlər.

4. Sədrin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin və Fəxri üzvlər barədə informasiyanın Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**